**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ**

**Gəncə Dövlət Universitetinin Elmi Şurasının 19.01.2023-cü**

**il tarixli (protokol № 04) Qərarı və rektorluğun**

**30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmişdir**

**GDU-nun rektoru ______________ prof. Y.Ə.YUSİBOV**

**«30» _____01_____ 2023-cü il**

# ELMİ-TƏDQİQAT SİYASƏTİ

**GƏNCƏ - 2023**

Gəncə Dövlət Universitetinin (GDU) Strateji Planına uyğun olaraq tədqiqat prioritetlərini planlaşdıraraq fokuslanmış tədqiqatları dəstəkləməyə üstünlük verir. Bundan əlavə, tədqiqat proseslərinin idarə edilməsi çərçivəsində milli və beynəlxalq tədqiqat siyasətlərinə uyğun olaraq prioritet sahələri müəyyən edir, xüsusi infrastruktur layihələrini dəstəkləyir və hərtərəfli tədqiqat aparmaq imkanları təklif edir.

## VİZYON

Keyfiyyətli tədqiqatlar aparan, tədqiqatları texnologiyaya çevirən, bilik və bacarıqlarını bəşəriyyətin və ölkənin xeyrinə istifadə edən, universal səviyyədə fərq yaradan və gələcəyə yönəlmiş milli və beynəlxalq nüfuza malik innovativ **"TƏDQİQAT UNİVERSİTETİ"** olmaq.

## MİSSİYA

GDU Respublikada elmi tədqiqat sahəsində aparıcı universitetlərdən biri olmaq üçün aşağıdakı vəzifələrin icrasını öz üzərinə götürür:

1. Tənqidi düşünən və problemləri həll edə bilən, şəxsi və peşəkar sahədə özünü daim yeniləyən, təbiətə həssas, fərqliliklərə hörmət edən, yaradıcı fərdlər yetişdirmək,
2. Elm və incəsənətə beynəlxalq səviyyədə töhfə verən və etik dəyərlərə hörmət edən fənlərarası tədqiqatların aparılmasına dəstək vermək,
3. Məhsul yönümlü elmi tədqiqatları iqtisadi dəyərə çevirməklə sahibkarlıq və innovasiya sahələrində davamlı tərəqqiyə nail olmaq,
4. Sosial məsuliyyət şüuru ilə ölkə problemlərinə həssas, ictimai maraqları nəzərə alan və davamlı inkişaf məqsədlərinə töhfə verən xidmətlər təqdim etmək.

## MƏQSƏDLƏR

1. Azərbaycanın on ən yaxşı araşdırma universitetindən biri olmaq,
2. Araşdırma reytinqinə görə dünyanın ən yaxşı 500 universiteti arasında olmaq,
3. Sosial və iqtisadi fayda verən tədqiqatlar ortaya qoymaq,

4. İstehsal olunan elmi bilikləri və bu bilikləri üzə çıxaracaq tədqiqatları dünya standartlarına çatdırmaq və bu insan resursunun davamlılığını təmin etmək üçün lazımi ixtisaslı kadr potensialını yaratmaq,

5. Sahibkarlıq və İnnovativ Universitetlər İndeksi reytinqində ön sıralarda olmaq.

**STRATEGİYALAR**

1. Araşdırma və innovasiyaya dəstək proqramlarından əldə edilən layihələrin sayının artırılması,

2. Araşdırma və innovasiyalara dəstək proqramlarından əldə edilən vəsaitlərin həcminin artırılması,

3. Bir professor-müəllim heyətinə düşən beynəlxalq indeksli jurnallarda dərc olunan nəşrlərin və sitatların sayının artırılması,

4. "Open Access" yanaşması ilə nəşrlərə və tezislərə çıxışı asanlaşdıracaq mexanizmlərin işlənib hazırlanması,

5. Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi,

6. Doktorluq dərəcəsi almış məzunların sayının artırılması,

7. Sənaye və beynəlxalq təşkilatlarla birgə doktorantura proqramlarının hazırlanması,

8. Elmi Tədqiqat Layihələrinin dəstəyi ilə sistematik tədqiqatın təşviq edilməsi,

9. Yerli və beynəlxalq tədqiqatlara dəstək fondlarında/proqramlarında iştirakın artırılması,

10. Sənaye ilə sağlam və daimi əməkdaşlığın inkişaf etdirilməsi,

11. Araşdırma və innovasiya sahələrində milli və beynəlxalq əməkdaşlığın artırılması,

12. Sahibkarlıq ekosisteminin yaradılması məqsədilə Pre-inkubasiya, İnkubasiya və Akselerator mərkəzlərinin yaradılması,

13. Sosial fayda təmin edəcək sosial sahibkarlıq və tələbə təşəbbüslərinin dəstəklənməsi,

14. TTO-nun koordinasiyasında investorlar, ilkin mərhələdəki vençur kapitalları, investor assosiasiyaları və oxşar birləşmələrin sahibkarlarla görüşməsinə şərait yaratmaqla qarşılıqlı əlaqənin artırılması,

15. Əqli Mülkiyyət Hüquqları, patentlər və lisenziyalaşdırma haqqında məlumatlılığın artırılması, milli və beynəlxalq patentlərin sayını artırmaqla kommersiyalaşdırma və lisenziyalaşdırma fəaliyyətlərinin effektiv şəkildə həyata keçirilməsi,

16. Sistematik tədqiqat layihələri üçün xarici resurslar əldə etmək üçün nəzərdə tutulmuş universitet daxili resurslarından istifadə edən mexanizmlərin yaradılması və icrası,

17. Araşdırma və innovasiya layihələrinin tətbiqi üçün tədqiqatçılara dəstək verilməsi və layihə nəticələrinin sosial faydaya çevrilməsi,

18. Universitet resurslarından və infrastrukturlarından daha səmərəli istifadə üçün proqramların layihələndirilməsi.